# 245 Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin təqdim olunmuş cədvələ müvafiq olaraq mükafatlandırılması barədə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin (əlavə olunur).

2. Qeyri-olimpiya proqramı üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında yüksək nəticələr göstərmiş idmançılar və onların məşqçilərinin mükafatlandırılması Gənclər və İdman Nazirliyinin daxili imkanları hesabına həyata keçirilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, mükafatların respublika büdcəsində "Bədən tərbiyəsi və idman" bölməsi üzrə nəzərdə tutulan vəsait hesabına ödənilməsini təmin etsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli, 174 nömrəli qərarı öz qüvvəsini itirmiş hesab edilsin.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 24 mart 2000-ci il
№ 57

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 24 mart tarixli, 57 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**OLİMPİYA OYUNLARI, OLİMPİYA PROQRAMINA DAXİL OLAN İDMAN NÖVLƏRİ ÜZRƏ DÜNYA VƏ AVROPA ÇEMPİONATLARI VƏ KUBOK YARIŞLARINDA ƏN YÜKSƏK NƏTİCƏLƏR GÖSTƏRMİŞ AZƏRBAYCAN RESPUBLİKASININ İDMANÇILARI VƏ ONLARIN MƏŞQÇİLƏRİ ÜÇÜN MÜKAFATLAR**

| Sıra №-si | Yarışın növü | Mükafatın məbləği (ABŞ dolları) | | |
|---|---|---|---|---|
| | | Tutduğu yer | | |
| | | I | II | III |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | **Olimpiya Oyunları**<br>İdmançı<br>Məşqçi | <br>25000<br>10000 | <br>10000<br>5000 | <br>5000<br>3000 |
| 2. | **Dünya çempionatı**<br>İdmançı<br>Məşqçi | <br>10000<br>5000 | <br>5000<br>3000 | <br>3000<br>1000 |
| 3. | **Avropa çempionatı**<br>İdmançı<br>Məşqçi | <br>5000<br>3000 | <br>3000<br>1000 | <br>1000<br>500 |
| 4. | **Dünya və ya Avropa Kubokunun final yarışı (ümumi hesabda)**<br>Komandanın idmançıları<br>Komandanın məşqçiləri | <br>24000<br>10000 | <br>12000<br>5000 | <br>8000<br>3000 |
| 5. | **Dünya Kubokunun final yarışı (fərdi)**<br>İdmançı<br>Məşqçi | <br>7000<br>4000 | <br>4000<br>2000 | <br>2000<br>1000 |
| 6. | **Avropa Kubokunun final yarışı (fərdi)**<br>İdmançı<br>Məşqçi | <br>4000<br>2000 | <br>2000<br>1000 | <br>1000<br>500 |
| 7. | **Dünya birinciliyi (gənclər)**<br>İdmançı<br>Məşqçi | <br>1600<br>800 | <br>800<br>400 | <br>400<br>200 |
| 8. | **Dünya birinciliyi (yeniyetmələr)**<br>İdmançı<br>Məşqçi | <br>750<br>350 | <br>375<br>250 | <br>125<br>50 |
| 9. | **Avropa birinciliyi (gənclər)**<br>İdmançı<br>Məşqçi | <br>1200<br>600 | <br>800<br>400 | <br>400<br>200 |
| 10. | **Avropa birinciliyi (yeniyetmələr)**<br>İdmançı<br>Məşqçi | <br>500<br>250 | <br>250<br>125 | <br>125<br>50 |



Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S. 1362-1263.